# 50 İL ƏVVƏL VAHİD ƏZİZLƏ VAQİF İBRAHİM NECƏ BARIŞDILAR...

## *İki dost ötən əyyamın 70-ci illərinin ən çox sevilən gənc şairlərindən idilər*

***Onlar yaşıd idi. Dünyaya da eyni ildə — Sovetlərin 9 May qələbəsindən sonra, 1945-ci ildə, poeziyaya da eyni vaxtda — 1960-cı illərin əvvəllərində gəlmişdilər. İkisi də Rəsul Rza, Bəxtiyar Vahabzadə və Əli Kərim yaradıcılığının güclü «maqnit sahəsinə» düşmüşdülər, onları özlərinin «kumiri», ustadı hesab edirdilər.***





Çoxlarına qərib görünsə də, ilk günlərdən öz orijinal, yenilik ruhlu şeirləri ilə Azərbaycan ədəbi ictimaiyyətinin diqqətini cəlb etmiş Vaqif İbrahim və Vahid Əziz öz yaradıcılıqları ilə bütünlüklə poeziya «episentrində» olsalar da, heç biri nə filoloji təhsil almışdı, nə də Moskvanın o zamanlar çox məşhur olan M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdi. İkisi də texniki institutların məzunu idilər — Vaqif İbrahim Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda, Vahid Əziz isə Azərbaycan Politexnik İnstitutunda mühəndis ixtisasına yiyələnmişdilər (ancaq poetik istedad qranit səddi də aşıb keçirmiş!). Onların hər ikisinin böyük poeziyaya ilk uğurlu addımları da Sumqayıtdan başlanmışdı. İlk tanışlıqları da Bakının gənc, kiçik qardaşı olan bu şəhərdə olmuşdu. İlk kitabları — Vaqif İbrahimin «Ömür balladası» və Vahid Əzizin «Mən küləyi görürəm» şeir kitabları da Rəsul Rza və Bəxtiyar Vahabzadənin xeyir-duaları ilə təxminən eyni dövrdə işıq üzü görmüşdü. Və mənim onlarla 1968-ci ildən başlanan tanışlıq, dostluq illərim ömrümün ən gözəl, poeziya ilə qaynayıb-coşan çox maraqlı və zəngin, mənalı illəri idi...

Vaqif İbrahim o vaxtlar özünün energetik ixtisasına müəyyən qədər uyğun olan Sumqayıt Radio verilişləri redaksiyasında məsul katib vəzifəsində çalışırdı. Onun şeirləri ilə ilk dəfə 1968-ci ildə o zamankı «Sosialist Sumqayıtı» qəzetindən tanış olmuşdum. Ənənəvi tərənnüm-təsvir, yeknəsəq «daley-daley» poeziyasından tamamilə fərqli, müasir və dinamik olan, həm sərbəst, həm də heca vəznində yazılmış şeirləri məndə onun tanımadığım müəllifinə, eyni şəhərdə yaşadığımız o gənc şairə böyük maraq oyatmışdı. Və bir gün ikimizə də yaxın olan bir nəfər məni Vaqif müəllimlə tanış elədi. Elə həmin gün təəccüblə öyrəndim ki, sən demə, Vaqif müəllimlə nəinki eyni şəhərdə, hətta eyni — 29-cu məhəllədə, 100 addımlıq qonşuluqda yaşayırıq (mən də o zaman Neft və Kimya İnstitutunun axşam şöbəsinin tələbəsi idim və Sumqayıtdakı «Şüşə bazar»la üzbəüz olan 12 №-li fəhlə yataqxanasında qalırdım). O gündən başlayaraq Vaqif müəllimlə hərdən o, işdən qayıtdıqdan sonra, bəzən də istirahət günləri görüşərdik.

Bir müddət sonra mənim də «şeir bəlasına mübtəla olduğumu» bilib, şeirlərimi oxumaq üçün ara-sıra məni çalışdığı Sumqayıt Radiosuna dəvət edirdi. Sonralar bunu teztez edirdi ki, mən «relsə düşüm», yeni şeirlər yazım. Bəzən yazdıqlarımın zəif olduğunu bəhanə edərək, şeir oxumaq istəməsəm də, məni həvəsləndirir, özümə inam oyadırdı. İlk vaxtlar mənim — 18 yaşlı bir «şeir dəlisi»nin mikrofon qarşısında həyəcanlandığını, özünü itirdiyini görüb, ruhdan düşməyə qoymaz, şeirləri təzədən oxutdurub, şəxsən özü təkrar-təkrar lentə yazar və sonra da imkan olduqca radioda səsləndirərdi. Təbii ki, bu, məni çox fərəhləndirir, «göyün 7-ci qatı»na qaldırırdı. Ancaq tələbə yoldaşlarım növbəti günlərdə radioda mənim şeirlərimə qulaq asdıqlarını deyib, təbrik etsələr də (nə gizlədim, təbrikə bəzi qızlarımızın da qoşulması məni daxilən sevindirirdi), xarakterimə elə o vaxtlardan xas olan təvazökarlıqla özümü sakit, təmkinli aparmağa, təkəbbürlü olmamağa çalışırdım.

Və... günlərin bir günü — 1969-cu ilin martında Vaqif İbrahim özünün bəyəndiyi üç şeirimi və iri bir şəklimi şəhər qəzetində verərək, o vaxtlar hər yeni yazmağa başlayanın arzusunda olduğu, mənim üçün gözlənilməz olan «Uğurlu yol!» yazdı — ümidverici fikirlərlə, xoş diləklərlə.

O vaxta qədər Vaqif müəllim Sumqayıtda keçirilən poeziya görüşləri zamanı məni poeziya korifeylərimiz Rəsul Rza və Bəxtiyar Vahabzadəyə də tərifləyərək, təqdim etmiş, yazdıqlarımdan bəzilərini onların da qarşısında oxumağıma nail olmuşdu. Məhz həmin dövrlərdə o, məni çox yaxın dost olduğu, şeirlərinə qəzetlərdə tez-tez rast gəlib, maraqla oxuduğum Vahid Əzizlə tanış etmişdi. O tanışlıqdan sonra vaxtaşırı — adətən şənbə və bazar günlərində mənim yaşadığım yataqxananın qarşısında, bəzən də elə «mənim otağımda» görüşüb, çaydansudan içib (o vaxtlar başqa cür içkilər heç ağla da gəlməzdi), ədəbiyyatdan, poeziyadan söhbət edərdik. Kəlbəcərdən olan otaq yoldaşım Salman Babayev şair qonaqlarımızın gəlişinə çox sevinərək, söhbətlərinə maraqla qulaq assa da, onlara və özünə hörmət edərək, bizə mane olmamaq üçün bir bəhanə gətirib, üzr istəyərək otaqdan çıxar, dostlarımızı və məni poeziyanın «ixtiyarına» buraxardı. Otaq yoldaşım getdikdən sonra Vahid Əziz özünü daha rahat hiss edər, sanki yorulmuş kimi çarpayılardan birinə uzanıb, görkəmli, tanınmış şairlərimizlə yanaşı gənc şair dostlarının da yaradıcılığı barədə Vaqif müəllimlə maraqlı söhbətlər edərdi. Mən onlardan yaşca (həm də, təbii ki — «başca») kiçik olduğum üçün çox vaxt söhbətlərinə müdaxilə etməz, sakitcə, maraqla onlara qulaq kəsilərdim.

Bir dəfə yenə mənim yanıma gəlmişdilər. Necə oldusa, mənim kitablarım içərisindən Sarı Aşığın kitabı (görünür, onun üz qabığı da bilərəkdən sarı rəngdə çap edilmişdi) əllərinə keçdi. Mənə də çox zaman nümunələr gətirdikləri o böyük sənətkarın kitabını vərəqlədilər və istər-istəməz onun yaradıcılığı — bayatı və təcnisləri ilə bağlı fikir mübadiləsi apardılar. Ancaq aşığın təcnislərindən biri iki dost arasında fikir ayrılığına səbəb oldu. Vaqif müəllim bildirdi ki, həmin təcnisdə (o bu gün də yadımdadır, ancaq Sarı Aşıq orda bir az «dərinə getdiyindən», «sarı sinə» vurduğundan, təcnisi burda vermək istəmirəm) hiss, duyğu, emosiya daha güclüdür, Vahid Əziz isə israr edirdi ki, yox, orda fikir daha mühüm yer tutur. Bununla belə hər ikisi səbrlə, tutarlı hesab etdikləri dəlil və məqamlarla öz fikirlərini əsaslandırmağa çalışırdı. Və bu, bir-birinin fikrinə qətiyyən etiraz, mübahisə deyil, sadəcə təbii yaranmış maraqlı bir ədəbi-poetik polemika idi. Yadımdadır ki, ikisi də özünü haqlı hesab etdiyindən, bir-birilə razılaşmayaraq, yekun qərara gəlməyib, hərə öz fikrində qalmışdı. Ancaq sonralar bir dəfə bu iki yaxın dost arasında həqiqətən küsülülüyə səbəb olan hansısa bir inciklik yaranmışdı. Əsl «məsələ» üstüörtülü qalmaqla o barədə mən yalnız bir-neçə gün sonra bilmişdim, dəqiq təfərrüata varmadan...

Bir dəfə şənbə günü Vaqif müəllim yataqxanaya zəng edib, «Şüşə bazar»ın yanında görüşməyimizi təklif etdi. İlk dəfə idi ki çox fikirli, qayğılı görünürdü. Səbəbini soruşmağa cəsarət etmədim. Qısaca hal-əhvaldan sonra dedi:

– Rəhman, dostumuz Vahid Əziz xəstələnib. Deyəsən, hardasa özünü bərk soyuğa verib. Bir-iki gün əvvəl aramızda kiçik sözsöhbət, inciklik olub, ona görə də mən onu yoluxmağa gedə bilmirəm. Ancaq təcili yardım çağırtdırmışam, həkimlər baxıb, nə lazımdırsa, ediblər. Lakin indi evdə təkdir, qardaşı Vaqif burda deyil, rayondadır. Qulluğunda duranı yoxdur. Sən gəl belə elə. Mənim adım olmasın, get onların evinə, çay-çörəyini, dava-dərmanını ver, kürəyini ovuşdur, yaxşı-yaxşı massaj elə. Vəziyyəti yaxşılaşandan sonra gəlib, mənə də məlumat verərsən. Qardaşı bu axşam rayondan qayıdacaq, özü baxacaq ona. Hələlik isə bizim köməyimiz, qayğımız lazımdır.

O vaxtlar mən də Vahid müəllimin böyük qardaşı, gənc, istedadlı alim, gözəl ziyalı Vaqif Cəfərovun çalışdığı, dünya şöhrətli akademik Yusif Məmmədəliyevin adını daşıyan Elmi-Tədqiqat Neft-Kimya Prosesləri İnstitutunun Sumqayıt filialında laborant kimi işlədiyimdən onu yaxşı tanıyırdım. Vaqif müəllimin özü ilə də bir dəfə onların 45-ci məhəllədəki evlərində olmuşduq. Elə o vaxt düşünmüşdüm ki, Vahid müəllim şair dostu Vaqif İbrahimlə yəqin həm də ona görə möhkəm dostdur ki, onunla qardaşının adı eynidir, gözəllik şairi M.P.Vaqifin adını daşıyırlar.

...Vahid müəllimgilin mənzilinə qalxaraq, qapını döydüm. O, güclə ayağa duraraq, qapını açmış və tələm-tələsik də çarpayıya uzanmışdı. Xəstə vaxtı ona baş çəkib, yoluxmağıma görə razılığını bildirdi. Vaqif müəllimin dediyi kimi, ona çay-çörək, həm də dava-dərman verib, «doxtur»luğumu elədim. Təxminən üç saatdan çox yanında oldum. Vəziyyəti bir az düzəldikdən sonra geri qayıtdım və dostuna onun vəziyyəti barədə məlumat verdim. Vaqif müəllim sanki bir az rahatlandı, üzünə təbəssüm qondu:

– Çox sağ ol, Rəhman. Dostumuzu yoluxdun, məni nigarançılıqdan qurtardın, — dedi.

Bir müddət sonra (gərək ki, 1971-ci ilin əvvəlləri idi) Vaqif İbrahimin təşəbbüsü ilə yaradılmış Əli Kərim adına Sumqayıt Poeziya klubunun növbəti Poeziya günü keçirilirdi. Şəhərin Şahmat klubunda təşkil edilmiş tədbirə Poeziya Klubunun fəxri sədri, 60 illik yubileyi respublika üzrə yenicə, çox böyük təntənə ilə keçirilmiş xalq şairi Rəsul Rza, Sumqayıt Şəhər İcraiyyə Komitəsinin sədri Kamal (Hüseyn) Axundov, şəhərin nüfuzlu ziyalısı və ağsaqqalı Zəbi Abdullayev, H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının aparıcı aktyorları, şeir-sənət həvəskarları da dəvət olunmuşdu.

Kamal müəllim tədbiri açıb, şəhərin fəxri qonağı Rəsul Rzanı çox böyük ehtiram və sevgi ilə salamlayıb, yubileyi münasibətilə şəhər ictimaiyyəti adından təbrik etdikdən sonra söz Poeziya klubunun üzvlərinə verildi. Şairlərdən Əşrəf Şəfiyev (Veysəlli), Mirsabir Nağıyev, Ofelya Babayeva, Nurəddin Mənsur (Əliyev), Qadir Sultanov və digərləri şeirlərini oxuduqdan sonra xalqımızın böyük, müdrik sənətkarı Rəsul Rza və Kamal Axundov birdən üzlərini təbiətən utancaq, təvazökar olan Vaqif İbrahimə tutub, onun da şeir oxumasını istədilər. Həmişə diqqətdən yayınmağa çalışan Vaqif müəllim bu dəfə bunu bacarmadı və kimisə axtarırmış kimi ətrafa göz gəzdirib, kövrək səslə şeirin adını — «Telefonsuz dostuma» deyəndə hiss etdim ki, o şeirin kimə həsr olunduğunu, nə münasibətlə yazıldığını Vaqif müəllimin özündən və məndən başqa heç kəs bilmir. O, təmkinlə bir qədər pauza verib, «Şair dostum Vahid Əzizə» deyəndə alqış səsləri qopdu. O, şeiri gur səslə, həyəcanla oxumağa başladı:

*İstədim zəng edəm... dəstəyə sarı*
*Cumdu barmaqlarım həmin andaca.*
*Birdən uşaq kimi kövrəldi onlar*
*Bir dost nömrəsinin yoxluğundaca.*
*Ona deyəcəyim sözlər süzüldü,*
*Dondu, qabar tutdu barmaqlarımda.*
*İstədim uzaqdan səsləyim onu,*
*Səslər düyün düşdü dodaqlarımda.*
*Heyf, o hamıdan gendir bu gecə,*
*Kimsəyə harayı yetməyəcəkdir.*
*Bütün insanlarla, dünyayla birgə*
*O, necə yalqızdır, necə də təkdir.*
*Kim bilir, bəlkə də könlündə onun*
*Kor olmuş, lal olmuş ağrı-acı var,*
*Bir dost qayğısına, təsəllisinə,*
*Bir dost söhbətinə ehtiyacı var...*
*Bəlkə də istəyir bu gecəyarı*
*Təkliyin gözündən tez yayına o..*
*Kim bilir, bəlkə də aldanır indi*
*Qonşu telefonun harayına o...*

Poeziya nəhəngimiz Rəsul Rzanın da çox diqqətlə qulaq asdığı şeir bitər-bitməz alqış sədaları Şahmat klubunun geniş salonunu başına götürdü. Şeiri həyəcanla dinləyib, başa çatmasını səbirsizliklə gözləyən Vahid Əziz kövrələrək, toplaşanlar arasından irəli yeriyib, bir-neçə gün əvvəl aralarında sözsöhbət olmuş dostu Vaqif İbrahimi bərk-bərk qucaqlayıb, bağrına basdı. Neçə illərin həsrətlisi kimi bir-birinə sarılaraq, bir müddət göz yaşları içində eləcə də qaldılar. Alqış sədaları kəsilmək bilmirdi. Hamı, eləcə də özünün bu istedadlı yetirmələri ilə fəxr edən Rəsul Rza da kövrəlmişdi. Şeir sanki hamını ovsunlamışdı, heç kəs dillənmək, nəsə demək iqtidarında deyildi. Sükutu şəhərin nüfuzlu, qayğıkeş rəhbəri Kamal müəllim pozdu. Üzünü o vaxt çox gənc olan, 25 yaşlı Vahid Əzizə tutub soruşdu:

– Vahid, sizin evdə telefon yoxdur ki?..

– Yox, Kamal müəllim, yoxdur...

Şeirdən «öz payına» nəticə çıxardan Kamal müəllim təəccübünü gizlətməyərək, bir daha soruşdu:

– Necə yəni yoxdur, Vahid? Axı, mən hələ iki ay əvvəl göstəriş vermişdim ki, sizin mənzilinizə telefon çəkilsin. Çoxdan çəkilməliydi axı...

Vahid Əziz az qala günahkar görkəmlə qayıtdı ki:

– Kamal müəllim, vallah, hələ çəkilməyib...

– Aydındır. Sabah saat 10-da sizin evdə telefon olacaq.

Salonu yenə alqış sədaları bürüdü. Bu, hər zaman söz-sənət sahiblərinə, həm də sıravi əmək adamına yüksək dəyər verən qayğıkeş şəhər rəhbəri Kamal müəllimin ünvanına, həm də istedadının, şeirinin qüdrəti ilə özü belə bu haqda düşünmədən telefonsuz dostunun probleminin həllinə «vasitəçi» olan Vaqif İbrahimin ünvanına idi.

...Səhərisi şənbə günü olduğundan yataqxanaızın 2-ci mərtəbəsindəki 19 saylı otağımda yaxşıca yatıb, dincəlmək istəyirdim. Lakin səhərin gözü açılar-açılmaz qapının bərk döyüldüyünü eşidib, cəld ayağa qalxdım. Qapının arxasından yataqxananın «vaxtyoru» (növbətçisi) olan gözəl, yaraşıqlı olduğu qədər də abırlı-həyalı olan orta yaşlı rus qadının səsini eşitdim:

– Mamedov, bıstro k telefonu...

Fikirləşdim ki, axı, səhər tezdən məni «narahat» edən kim ola bilər? Qohumlardan kiminsə zəng etdiyini, nəsə baş verdiyini düşünüb, həyəcanlandım. Cəld aşağı, birinci mərtəbəyə düşüb, telefonun dəstəyini götürdüm. «Allo» deməyimlə salamsız-kalamsız:

– Rəhman, telefonumun nömrəsini yaz: 43-01, — deyildiyini eşitdim (o vaxtlar Sumqayıtda telefon nömrələri dörd rəqəmli idi).

Bəli, danışan, səhər tezdən sevincini mənimlə bölüşmək istəyən şair dostumuz Vahid Əziz idi. Belə bir xoş xəbərə sevinərək, onu təbrik etdim, həmin telefonla hər zaman xoş xəbərlər eşitməsini arzuladım. Və soruşmasam da, zərrəcə də şübhə etmədim ki, Vahid müəllim məndən əvvəl öz istəkli, sədaqətli dostuna — evinə operativ olaraq telefon çəkilməsinə səbəbkar olmuş Vaqif müəllimə zəng edib, sevincini ilk əvvəl onunla bölüşüb, ona minnətdarlığını bildirmiş, sonra isə mənə zəng vurmuşdu.

...Saata baxdım — hələ heç 9 da yox idi. Kamal müəllimin vəd verdiyi vaxta bir saatdan da çox qalırdı.

**Rəhman ORXAN.**